
Mahnıdır yelkənim əzəldən mənim



BAKI, SABAHIN XEYİR!

Qayıdıb xoş güzərdən,
Günəş qalxır Xəzərdən.
Sevgilim keçən yerdən
Bütün şəhər yeriyir.
Bakı, sabahın xeyir!

Nəqarət

Hörükləri qaradır,
Qaşları ayparadır.
O bir aləm yaradır,
Hamı ürəkdən deyir:
Bakı, sabahın xeyir!

Xumarlanır ləpələr,
Gülür mehriban şəhər,
Sevgilim səhər-səhər
Zər şəfəqdən don geyir.
Bakı, sabahın xeyir!

ANA

Könlümün nuru, canım ana,
Böyütdün sən məni yana-yana.
Odlusan gün kimi, bir qaynar həyat kimi,
Borcluyam mən sənə, sənə bir övlad kimi,
Əziz ana.

Nəqarət

Nə ki arzu kamın var,
Qəlbimdə tutmuş qərar.
And olsun sana, can ana.
Qədrini el bilir, ətrini gül bilir,
Saçının ağına, qarasına qurbanam.
Könlünün o həzin laylasına qurbanam
Əziz ana.

Beşiyim üstə layla çaldın,
Gecələr sübhədək qadamı aldın.
İsti nəfəsini həmişə yaz bilmişəm,
Olub ki, mən sənin qədrini az bilmişəm,
Əziz ana.

Niyyətin xoşdur, safdır südün,
Qulağımda qalıb hər öyüdün.
Oğluna, qızına ay etibarlı ana,
Nəfəsi gül kimi, qəlbi baharlı ana,
Əziz ana.

ARZU

Qara gözlü, şirin sözlü,
Al yanaqlı, gözəl qız.
Hər gün sizin güllü bağda
Şeyda bülbül olaydım.
Ay gözəl qız, ay qəşəng qız.
Bağçamıza gəlibsən.
Gül əlinlə gül dərəndə
Mən də bir gül olaydım.
Çoxdur sözüm, necə dözüm
Həsrətinə, gözəl yar?
Harda olsan, təmiz qəlbim
Səni deyib arzular.

Bir diləyim, bir arzum var,
Dinlə məni, ey nigar:
Kaş ki, sənin saf sinəndə
Odlu könül olaydım.

BİR KÖNÜL SINDIRMIŞAM

Mən onu dan ulduzu,
Zərrin şəfəq sanırdım.
Kimə inanmasam da,
Bir ona inanırdım.

O, bir qaranquş kimi
Qəlbimdə yuva qurdu.
Acı dilim qurusun,
Dilim onu uçurtdu.

Saçlarının gül ətri
Titrəyən ovucumda.
Bu intizar gözlərim,
Ağlar yol ayrıcında.

Qəbahətim böyükdür,
Ay ellər, dünən axşam;
Bir ürək sındırmışam,
Bir könül sındırmışam.

PIÇILDAŞIN LƏPƏLƏR

Pıçıldaşın, pıçıldaşın, ləpələr!
Bəlkə mənə bir sözünüz var sizin?
Üç gecədir mənim ömür yoldaşım
Buruq qazır qucağında dənizin.

Körpəmizi yatırmışam indicə,
Beşiyinə ay nurunu səpələr.
Sevgilimdən xəbər verib gizlicə,
Pıçıldaşın, pıçıldaşın, ləpələr!

Gecə keçir... ay dolanır üfüqdə,
Göy Xəzərin sinəsində meh əsir.
Ah... tez olun, darıxıram, ey sular,
Müjdə verin, sevən qəlbim tələsir.

Mavi sular, sevgilimə yol verin,
Qoy qayıtsın alnı açıq üzü ağ!
Çünki qızıl Abşeronun oğluna
Bir adətdir zəfərlərlə qayıtmaq.

Pıçıldaşın, pıçıldaşın, ləpələr!
Bəlkə təzə bir sözünüz var sizin?
Üç gecədir mənim ömür yoldaşım
Buruq qazır qucağında dənizin.

Körpəmizi yatırmışam indicə,
Beşiyinə ay nurunu səpələr.
Sevgilimdən xəbər verib gizlicə,
Pıçıldaşın, pıçıldaşın, ləpələr!

GƏNCLİYİMİ GƏZİRƏM

Hanı göy düzlər,
Hanı o izlər?
Gəncliyim yoxsa tərk edib məni?
Ləpirlər dolub,
Görünməz olub.
Gəl, gəncliyim,
Gəzirəm səni.

Küləklər daraqdı,
Saçlarım düm ağdı.
Səni görməkçün səcdəyə gəldim,
Tapmadım səni kövrəldim.
Görmədim səni kövrəldim,
Ey əziz gəncliyim, gəl,
Bax mənə kövrəl.

Nəğarət

Babamdan qoca
Çinarlar uca.
Onlar da məni tanıdı bir bax.
Budağın əydi,
Üzümə dəydi.
Tək gəncliyim yox oldu ancaq.

Firuzə Xəzər,
Bağları bəzər.
Sahillər tanış, qaya üstə çıx.
Qayalar yalçın,
Ləpələr qırçın
Göy min rəngdədir, üfüqlər açıq.

ZƏRİFLİK

Zərif gözəllik qəlb sirdaşı,
Könlümdəki bir yaqut qaşı.
Arzu sonsuz, ürək odsuz sönər...
Dilbər, dilbər...

Nəqarət

Gəl sevək bu həyatı,
Zəriflik xoş bayatı.
A gülüm, gözəlim, gəl dinlə məni,
Sevgilim, sevindir qəlbinlə məni.

Nəqarət

Gözəldir sevmək, sev xilqəti,
Həyatdakı ilk məhəbbəti.
Sevgi yolu, sevda yolu,
Ümman...
Aman, aman...

Nəqarət

GƏLİN OLAR

Lal axan su sərin olar,
Dalğın baxış dərin olar.
O qız mənə könül versə,
Anamaca gəlin olar.

Yanağında xal var – şirin,
Dodağında bal var – şirin.
Küsdürəndə acı küsdür,
Barışanda yalvar şirin.

Fikrə getsə, fikrə dallam,
Meyl eyləsə meyil sallam.
İlqar versə xumar gözlüm,
Bu dünyanı satın allam.

DAN ULDUZU, BİR DƏ MƏN...

Göylər örtmüş başına
Buludlardan kəlağay.
Göz qırpan ulduzlara
Layla çalar sanki ay.

Nəqarət

Gecə əriyib keçir,
Yat, quzum, beşiyində.
Dan ulduzu, bir də mən
Durmuşuq keşiyində.

Bir ağ qağayı kimi,
Külək qalxıb dənizdən,
Qulaq asır laylama,
Açıq pəncərəmizdən.

Nəqarət

Dan yeri söküləndə,
Sübhün mehi oyaqdır.
Xəzərdə sönüb-yanan
Şəfəq deyil, mayakdır.

HƏYATIM, GƏL

Ürəkdə nisgil yatar,
Gözdə həsrət ifadəsi.
Söz canda yüz il yatar,
Uzaq düşsə yarın səsi.

Nəqarət

Min gülə şeh düzərəm,
Dağ çəni ahım olsa.
Hər cəfaya dözərəm,
Yar düzdə ahum olsa.

Qəlb göynəyər, göz dolar,
Mənim sevgi qanadım, gəl.
Ümidsiz aşiq solar,
Ümidim gəl, həyatım gəl.

GÖRÜŞƏNDƏ

Bağ arası sular daşar,
Qönçə güllər pıçıldaşar.
Yarpaqlar da xışıldaşar
Bülbüllə gül görüşəndə.

Yarpaq düşər xəzəl olar,
Süzgün baxış gözəl olar.
Yar mülkünə güzar olar,
İki könül görüşəndə.

Eyvana çıx, məni dinlə,
Nəğmə deyək gəl sənlə,
Göz bəyənib qəlb sevənlə
Günah deyil görüşəndə.

ÜZMƏ MƏNİ

Yaş ötür, gözəl qız, həyat şirindir,
Məhəbbət ondan da qat-qat şirindir.
Uzat şümşad əllərini.
Mənsiz keçən günlərini
Sapa düzmə, yar.

Duman tül saldıqca kolların üstə,
Hər səhər keçdiyin yolların üstə.
Bulaq olub süzülmüşəm,
Çiçək kimi düzülmüşəm,
Məni üzmə, yar.

Çıxanda seyrinə yaşıl düzlərin,
Güləndə sənin o ülkər gözlərin.
Təmiz eşqim güzgün olar,
Sənsiz bir gün yüz gün olar,
Ayrı gəzmə, yar.

İLK XATİRƏLƏR

Gözələ göz dəyər,
Qəlbə söz dəyər.
Hicrana düşən, gülüm,
Vüsal gözləyər...

Nəqarət

Baxt ulduzumsan,
Parla, ey ülkər.
Boylanır qəlbimdən
İlk xatirələr.

Yanağa meh qonar,
Gülə şeh qonar.
Səbrim tükəndi, gülüm,
Hardasan, ey yar.

Nəqarət

Baxt ulduzumsan
Parla, ey ülkər.
Boylanır qəlbimdən
İlk xatirələr.

AĞ XALATLI HƏKİMLƏR

Nə gündüzü, gecəsi var,
Xəstələrdən neçəsi var,
Rahat yata gərək onlar.
Gül həyatlı həkimlər,
Ağ xalatlı həkimlər.

Ürəklərin tacı olan,
Bizə qardaş-bacı olan,
Dərmanları acı olan,
Ey nabatlı həkimlər,
Ağ xalatlı həkimlər.

Gecə yarı, mən neyləyim,
Ərşə qalxır istiliyim.
Sizi görən xəstəliyim
Olur atlı, həkimlər,
Ağ xalatlı həkimlər.

BULUDLAR

Suların üstündə
Sonatək üzərsən.
Necə xoş görünər,
Tül geyinər.
Narın üzərsən.

Axar buludlar,
Xal-xal buludlar.
Güllər şeh çiləyər, ey gül.
Gözündən ağlar
Gümüş bulaqlar.
Duman,
Duman,
Duman...
Aman-aman
Dağlara duman
Bir əbədi mehman.

Yaylaqda yanaram,
Aranqa üşüsən,
Sənə and içirəm,
Tez gələrəm məni düşünsən.

Tez ötün, buludlar,
Üreyim nur istər.
Tərlanım olsa yar,
Ay doğanda o məni gözlər.

SEVGİ VALSI

Ay dolanır, gecə lal;
Dayanmışıq üz-üzə.
Göz qırparaq ulduzlar
Uzaqdan baxır bizə.

Yanaqların sayrışır
Çiçək-çiçək, sevgilim.
Gənclik gözəl, ömür şən,
Oxu, göyçək sevgilim.

Oxu, gözəl sevgilim,
İlk məhəbbət nəğməsi;
Buludlara toxunsun
Eşqimizin nəfəsi.

Səyyarələr tökülsün
Üstümüzə gül kimi.
Saçlarını oxşasın
Küləklər sünbül kimi.

Oxuyaq, ey sevgilim,
Nəğməmiz həyat olsun.
Daim ucalmaq üçün
Eşqimiz qanad olsun.

HƏKİM QIZ

Gülər üzlü həkim qız,
Ey gözləri bənövşə.
Qapımızdan keçəndə
Sarsılıram həmişə.

Başım da ağrımır ki,
Bir yanına gəlim mən.
Geyinib ağ xalatı,
Qəlbimi dinləyəsən.

Günəş kimi təmizdir,
Safdır sənin niyyətin.
Ellərə ömür verir,
Həyat verir sənətin.

Qoy toxunsun sinəmə,
O şəfqətli əllərin.
Ürəyinlə dinlə bir,
Ürəyimin tellərin.

Söylə, intizarını
Nə vaxtadək çəkim qız?
Oxuyuram sənincün
Bu nəğməni, həkim qız!..

AĞ ŞANI, QARA ŞANI

Xəzərin ağ şanısı,
Bağların nişanlısı.
Qızıl qumda yaqutum,
Qızılım,
Alışanım,
Qoşa şanım.

Nəqarət

Günəşin ilk zəri,
Bakının cövhəri,
Abşeron nabatı,
Bağların şəkəri,
Meynələr ulduzu,
Torpağın ülkəri,
Qara giləm, ay ağ giləm,
Qoşa giləm mənim.

Dadlısan, məzəlisən,
Meynələr gözəlisən.
Yayda şirin nübarım, mirvarim,
Alışanım,
Qoşa şanım.

Nəqarət

Dənizdən mehlər əssin,
Salxımların titrəsin.
Dürdanəsən, büllursan, bir nursan,
Alışanım,
Qoşa şanım.

Nəqarət

AY ÖPÜŞƏN DALĞALAR

Siz qaynar həyatsınız,
Nəğməyə qanadsınız.
Sahili şən dalğalar,
Ay öpüşən dalğalar.

Sevgilim dənizdədir,
Ağ yelkəni üzdədir.
Yatın barı dalğalar,
Ay mirvari dalğalar.

Qoy bilsin o aybəniz,
Sinəmdədir göy dəniz.
Könlümə yar dalğalar,
Ay mirvari dalğalar.

BULUD GÖYDƏN LAL KEÇƏR

Romans

Bulud göydən lal keçər,
Başdan min xəyal keçər.
Hicran yaxın gələndə
Könüldən vüsal keçər.

Ülkər gözlü şux nigar,
Sənə bircə sözüm var;
– Göydən ulduz axanda,
Alışaydım yaxanda.

Ömür axar bir sudur,
Sevgi şirin duyğudur.
İnsanları yaşadan
Saf əməl, saf arzudur.

AY QAŞI, GÖZÜ QARA QIZ!

Göy çəməndə ötür turac,
Sübh açılır, gülür yamac.
Başındakı örpəyi aç,
Saçlarını yan dara, qız,
Ay qaşı, gözü qara qız!

Ay nurunu salır kəndə
Biz eyvanda görüşəndə,
Toyumuzdan söz düşəndə
Gəl naz eləmə yara, qız,
Ay qaşı, gözü qara qız!

Bu gün məhsul bayramıdır,
Gözəl payız axşamıdır.
Deyib-gülmək əyyamıdır.
Geyin-keçin al-xara, qız,
Ay qaşı, gözü qara qız!

XƏZƏR ROMANSI

Axşamdan ləpə yorğun,
Dəniz özünə vurğun.
Ulduz suyamı düşdü?
Hər damla bir gümüşdü.

Xəzər tərli aynadı,
Birdən sular oynadı.
Oynadı qəlbim kimi,
Qaynadı təbim kimi.

Saldığım sıx buruqlar,
Göründü qatar-qatar.
Dəniz məni saxladı,
Boynumdan qucaqladı.

Bakı büründü zərə,
Mahnı dedim Xəzərə.

SEVGİLİM

Sevgilim, könlümün sazını dindir,
Onsuz da həyatım, eşqim sənindir.
Ah... gülüm, incitmə məni,
Gözəlim, ürəkdən sevirəm səni.
Gəl qoşa seyr edək bağı, çəməni.

Nəqarət

Muradım sənsən, gülüm,
Qanadım sənsən.
Həyatım sənsən,
Sevdim səni, gözəl yar, sevdim ürəkdən,
Çələng hördüm başına güldən, çiçəkdən,
Gözəl yarım.
Ah...

Ömrümüz çiçəkli bahara bənzər,
Eşqimiz əbədi gülzara bənzər.
Gəl, yarım,
yaxın gəl, gözəl,
Yaşadaq bu şirin duyğuları biz,
Birləşsin çırpınan azad qəlbimiz.

YAXŞI SINA

Ömrüm olub yoxşu yarı,
Bundan özgə yox şüarı:
– Yaxşı dostu, yaxşı yarı,
Bərk ayaqda yaxşı sına!

Bir sevdaya düşə könlüm,
Eşq odunda bişə könlüm.
Kaş sınmaya şüşə könlüm,
Sınanda da yaxşı sına!

Ülkər gözlü, nazlı canan,
Qəlb sözümü dinlə bir an:
– İslam deyər, canım qurban
Yaxşı yarın yaxşısına!

NƏSİMİ

Nəğmə

Göz yaşının qəzəb odu,
– Üsyan! – dedi zamanına.
Hər günün min əzab oldu,
Düşdün fikrin ümmanına.

Nəqarət

Türbənə yay gül ətirli səsimi,
Əsirlərin söz sərrafı Nəsimi...

Haqsızlığı qamçıladın,
Azdın mahnı dəryasında,
Ürəyindən qan çilədin,
Dövranın daş aynasına.

Nəqarət

Türbənə yay gül ətirli səsimi,
Əsrlərin söz sərrafı Nəsimi...

Vəsf etdikcə elimizi,
Sən öz könül rübabında,
Sevdin ana dilimizi,
Şeir-sənət kitabında.

Nəqarət

Türbənə yay gül ətirli səsimi,
Əsirlərin söz sərrafı Nəsimi...

BİR PARÇA BULUD

Qalxıb göy üzünün qürur taxtına,
Günəş arxalandı qızıl baxtına.

* * *

Ayağı od tökdü, başı zər seli,
Axdı alınlardan yenə tər seli.

* * *

Aranı qovurdu, dağı üşütdü,
Yaşıl zəmilərdə sütüllər ütdü.

* * *

İnsanın əlindən alıb kölgəni,
Dedi: – Od pəncəmdə sıxaram səni.
Hökmüm bir dünyadır, işığım ümman,

Qarşımda sarsılıb yer zaman-zaman.
Hər telim bir nurlu qızıl külçəsi,
Mənəm kainatın ilk sərkərdəsi.
Əlçatmaz zirvəyəm, yanar bir dağam,
Qəlbim sevməyənə od vuracağam!

* * *

Bu vaxt görkəmində həzin bir sükut,
Göründü üfüqdə bir parça bulud.

* * *

Sözsüz mahnı deyil, qalxdı, ucaldı,
O, günün üzünə tünd kölgə saldı.
...Odur ki, özünü bənzədib günə,
Heç kəs güvənməsin böyüklüyünə!...

YADIMA DÜŞDÜN

Dəydi saçlarıma bahar küləyi,
Nazəndə sevgilim, yadıma düşdün.
Hərənin baxtına bir gözəl düşər,
Sən də təkcə mənim adıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

Sənsiz dağ döşünə çıxdım bu səhər,
Ötdü qumru kimi gur şəlalələr.
De, niyə yalqızsan, sordu lalələr,
Qövr etdi niskilim, yadıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

Bir müddət dost kimi gəzdik yanaşı,
İncitdim qəlbini, mən oldum naşı.
Sənsiz, ey gözəlim, bağrımın başı
Oldu dilim-dilim, yadıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

Haqsızlığı qamçıladın,
Azdın mahnı dəryasında,
Ürəyindən qan çilədin,
Dövranın daş aynasına.

Nəqarət

Türbənə yay gül ətirli səsimi,
Əsrlərin söz sərrafı Nəsimi...

Vəsf etdikcə elimizi,
Sən öz könül rübabında,
Sevdin ana dilimizi,
Şeir-sənət kitabında.

Nəqarət

Türbənə yay gül ətirli səsimi,
Əsirlərin söz sərrafı Nəsimi...

BİR PARÇA BULUD

Qalxıb göy üzünün qürur taxtına,
Günəş arxalandı qızıl baxtına.

* * *

Ayağı od tökdü, başı zər seli,
Axdı alınlardan yenə tər seli.

* * *

Aranı qovurdu, dağı üşütdü,
Yaşıl zəmilərdə sütüllər ütdü.

* * *

İnsanın əlindən alıb kölgəni,
Dedi: – Od pəncəmdə sıxaram səni.
Hökmüm bir dünyadır, işığım ümman,

Qarşımda sarsılıb yer zaman-zaman.
Hər telim bir nurlu qızıl külçəsi,
Mənəm kainatın ilk sərkərdəsi.
Əlçatmaz zirvəyəm, yanar bir dağam,
Qəlbim sevməyənə od vuracağam!

* * *

Bu vaxt görkəmində həzin bir sükut,
Göründü üfüqdə bir parça bulud.

* * *

Sözsüz mahnı deyil, qalxdı, ucaldı,
O, günün üzünə tünd kölgə saldı.
...Odur ki, özünü bənzədib günə,
Heç kəs güvənməsin böyüklüyünə!...

YADIMA DÜŞDÜN

Dəydi saçlarıma bahar küləyi,
Nazəndə sevgilim, yadıma düşdün.
Hərənin baxtına bir gözəl düşər,
Sən də təkcə mənim adıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

Sənsiz dağ döşünə çıxdım bu səhər,
Ötdü qumru kimi gur şəlalələr.
De, niyə yalqızsan, sordu lalələr,
Qövr etdi niskilim, yadıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

Bir müddət dost kimi gəzdik yanaşı,
İncitdim qəlbini, mən oldum naşı.
Sənsiz, ey gözəlim, bağrımın başı
Oldu dilim-dilim, yadıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

Gözlərim yoldadır, qulağım səsdə,
Səni unutmaram mən son nəfəsdə.
Ey ceyran baxışlım, ey boyu bəstə,
Ey tazə-tər gülüm, yadıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

NƏ VAXTA QALDI

Gilənar qızardı, ağ tut sovuşdu,
Payını dərmədim, budaqda qaldı.
Hamı könül verib yara qovuşdu,
Bəs bizim toyumuz nə vaxta qaldı?..
Ay gözəl, nə vaxta qaldı?

Qönçələr açılıb, gülür çəmən, düz...
Hər axşam tarladan qayıdanda biz,
Yoxsa o "sevirəm" söylədiyin söz
Düşüb mərcan kimi bulaqda qaldı?..
Ay gözəl, nə vaxta qaldı?

Göyləri ay gəzir, hava bürkülü,
Eyvanda durmuşam boynu bükülü.
Bəlkə eşqimizin sona bülbülü
Uçub yol üstdəki qovaqda qaldı?..
Ay gözəl, nə vaxta qaldı?

Əzəldən gözəldir boyun, qamətin,
Olsa da qəlbini ovlamaq çətin.
Bil ki, ey gözəl qız, saf məhəbbətin
Ürəkdə yurd salıb, dodaqda qaldı...
Ay gözəl, nə vaxta qaldı?

QƏND BALA, NABAT BALA

Üfüqlərdən ay nur səpir gümüşü,
Nə parlaqdır dodağının gülüşü.
Gül üzünə bir ay baxır, bir də mən.
O, göylərdə layla çalır, yerdə mən.
Xoş laylamla xumar-xumar yat, bala.
Qənd bala, nabat bala.
Külək qonub pəncərəyə astadan,
Qulaq asır bu laylama, balacan.
Yastığına ətir səpir elə bil,
Yanağından gəlib öpür elə bil.
Xoş laylamla xumar-xumar yat, bala.
Qənd bala, nabat bala.
Ana qəlbi bulaq suyu kimidir,
Ana səsi ürəklərin simidir.
Sonbeşiyim, ey ömrümün son barı.
Sənsən ana həyatımın baharı.
Xoş laylamla xumar-xumar yat, bala,
Qənd bala, nabat bala.

AYLI GECƏLƏR

Gecə sakit, çay axır,
Lal sularda ay axır.
Ey gülüm, gəl cövlana,
Eyvandan,
Mehriban,
Nazlı yar, nazlı yar baxır.

Nəqarət

Mən necə dözüm,
Yaxın gəl quzum.
Gecələr,
Uzun gecələr.

Nə dadlısan, duzlusan,
Sən bir qəmər üzlüsən.
Ay baxır,
Çay axır yar.
Ey gülüm,
Ala göz, ala gözlüsən.

Nəqarət

Ulduz göydən sovuşur,
Kirpiklərin qovuşur.
Gəl, gülüm, sevən qəlbim
Gecələr,
Gecələr
Tək səni, səni soruşur.

Nəqarət

AQRONOM OĞLAN

Kəndimizə gələn, aqronom oğlan,
Tarlalar əlinlə gülzara dönür.
Kolxozun çölləri yamyaşıl görünür.
Ay oğlan, can oğlan,
Əziz, mehriban oğlan!

Üz-üzə gələndə, aqronom oğlan,
Sünbüllər səslənir bir dərya kimi,
Sanki sənə açır mənim saf eşqimi.
Ay oğlan, can oğlan,
Əziz, mehriban oğlan!

Ey mənim sevdiyim, aqronom oğlan,
Şöhrətin yayılıb tarlaya, düzə.
Qəlbim qanadlanır gələndə sən bizə.
Ay oğlan, can oğlan,
Əziz, mehriban oğlan!

Sənin eşqinlə, ey aqronom oğlan,
Birləşib, gül açır zəhmətim mənim.
Bol məhsul verəcək öz çölüm, çəmənim.
Ay oğlan, can oğlan,
Əziz, mehriban oğlan!

LÖVHƏ

Mürgü vursa səhər mehi,
Pəncərəmi duman yalar...
Öz bozumtul qanadından
Şəhər üstə
Bir incə tül pərdə salar...
Harda isə dinər kaman:
– Getmə,
ey həzin qanadlı duman!
Sən məyus anlarıma
bənzər kimisən.
Gəl,
Çəkilmə,
Sən dalğın
Xəzər kimisən...
Xəzərə düş boz dumanım,
Taleyini
qələmsiz də,
göy sulara yaz,
dumanım...
Bəlkə yarı həlak olmuş
Bir gəlinin son ahısan?
Bozumtul bir tül içində
Sən ismətli gəlin kimi
həyalısan...
Getmə duman, həzin duman.,
Gəl dövrəmdə gəzin, duman.
Gec-gec gələn qonağımsan...
Gəl dolduraq badəmizə
çəmən şehi.

Tez ol, duman,
oyanacaq səhər mehi.
Saçlarıma
inci düzüb ax, dumanım.

Nisgilli bir gəlin kimi,
Mənə bir də bax, dumanım...
...Elə bu vaxt,
üfüqlərin yanağına
Dan şəfəqi qan çilədi.
Otlar üstə səpələnmiş.
Neçə min şeh damlasını
İncilədi...
Pəncərəmdə səhər yeli,
Təzə nəğmə çalıb getdi.
Dumanımı, –
Nəhəng Zümrüd quşu kimi
Qanadına alıb getdi...

BAKILI QIZ

Bakılı qız, paytaxtımın gözəlisən,
Öz eşqimin, öz bəxtimin əzəlisən.
Suları yara-yara buruqlara gedəndə sən,
Oyanır qızıl günəş sənin şirin gülüşündən.
Sevirəm səni, mən bakılı qız,
Ala gözlü yar, şən bakılı qız!

Zəhmətinin bəhrəsidir, ey gözəl yar,
Xəzər üstə şəfəq salan gur işıqlar.
Sevgilim, gülür Xəzər, ömür gözəl, dövran gözəl,
Gülşənim, sal bir nəzər, hər yan qəşəng, hər yan gözəl.
Sevirəm səni, mən bakılı qız,
Ala gözlü yar, şən bakılı qız!

Ürəyini ürəyimdə yaşadıram,
Kaş sənlə qoşa gəzib, qoşa duram.
Hər səhər başın üstə qağayılar qanad çalır,
Qazdığım sıx buruqlar Xəzər boyu kölgə salır.
Sevirəm səni, mən bakılı qız,
Ala gözlü yar, şən bakılı qız!

ŞƏHLA GÖZLÜM

Həsrətinlə gecə-gündüz
Şölə çəkib, yanıram mən.
Sənin şəhla gözlərini
Bəxt ulduzu sanıram mən...

Nəqarət

Səsimi dinlə,
Gəl, şirin sözlüm,
Ey şəhla gözlüm!

Bir adətdir əzəl gündən;
Könül sevən gözəl olar.
Sənin şəhla gözlərində
Eşqimizin atəşi var.

Saf eşqimiz bir bahardır,
Mən bülbüləm, sən də çiçək.
Qızarır al yanaqların
Dan yerinin şəfəqitək.

AVTOMOBİL MÜFƏTTİŞİ

Dan yerinə səda düşür,
Gur maşınlar hey ötüşür.
Səni görcək usta keçir,
Yavaş sürür, asta keçir.

Nəqarət

Vaxt gözləmir yol bələdçim,
Mavi işıq yandır – keçim.
Ey şirindil müfəttişim,
Avtomobil müfəttişim.

Nəqarət

Gecə keçir, əsir külək,
Sən ayıqsan keşikçitək.
Sənsiz cəfa çəkə bilər,
Hər qəzadan bizim şəhər.

Nəqarət

Ey sürücü, ey piyada,
Bərk ayaqda yetiş dada.
Ona sadiq köməkçi ol,
Sənindir yol, mənimdir yol.

Nəqarət

DİLSİZ DƏQİQƏLƏR

Başında ağ kəlağay,
Buludlardan axır ay.
Birdən yar gəlməz indi,
Bu kecə nə həzindi...

...Çiynimə bir əl qonur,
Baxıram, gözlər qonur.
Baxışlar dupdurudur,
O, ayınmı nurudur?

Tərpənməyir buludlar,
Ləpələrdə sükut var.

Nə o dinir, nə də mən,
Aparır bizi yelkən.
Vallah, dünyaya dəyər
Bu dilsiz dəqiqələr...

BİLMƏDİN

Bağçamıza gəldi bahar,
Yaşıl xalı sərdi bahar,
Gəl dedim, gəlmədin, yar,
Gəlmədin, yar.

Nəqarət

Məni yada salsan, a yar,
Ürəyimi alsan, a yar,
A ceyran sevgilim,
Mehriban sevgilim,
Sirrimi bilmədin,
Bilmədin yar...

Nəğmə deyib, güldükcə mən,
Güldü çiçək, güldü çəmən,
Gül dedim, gülmədin, yar,
Gülmədin, yar.

Dindir şirin sözlə məni,
Özün dedin gözlə məni.
Gözlədim, gəlmədin, yar,
Gəlmədin, yar.

BAKIYA KÜR GƏLİR

Tər lalə toplayın, bənövşə yığın,
Qızıl Abşeronun göy sinəsindən.
Güldəstə bağlayıb, yollara çıxın,
Nəğmələr yaradaq Kürün səsindən.

O keçir şəhərin daş yaxasından,
Hər evdə, eyvanda axar su gülür.
Sanki dəli Kürün hər damlasında
Ulu babaların arzusu gülür.

Qoy nəğməm əbədi düşsün dillərə,
Zəhmətlə öpüşsün, gül baxtım mənim.
O suyu gətirən polad əllərə,
Ömürlük borcludur paytaxtım mənim.

Göz vurub Xəzərə,
Duzlu gözələ
Şirin bulaq kimi süzülür gəlir.
Ömürlər üstünə bir ömür gəlir,
Bakıya Kür gəlir, mavi Kür gəlir.

YOL AYRICINDA

Yazda gömgöy olan bağlar,
Payızda tez sovuşurlar.
Sevgililər ayrılırlar,
Sevgililər qovuşarlar
yol ayrıcında.
De, nə gördüm bu həyatda,
Gah yatmışam, oyanmışam.
İlk eşqimin çətri altda
Bir sükutla dayanmışam
yol ayrıcında.
İstər indi, istər qədim,
Könül küsür, qəlb barışır.
Bəzən olur, nə gizlədim,
Ürəklər də haçalaşır
yol ayrıcında.

QONAQ GƏL BİZƏ

Qəlbimi dindir,
Sənə sözüm var.
Naz, naz eyləmə,
Gəl görüşək, yar.
Çıx yaşıl düzə,
Qonaq gəl bizə.
Gözüm yoldadır,
Xoş xəyaldadır.
Tez gəl, ey gülüm,
Gözəl sevgilim.
Həyatımda var
Sevgili bir yar.
Nəqarət
Çıx yaşıl düzə,
Qonaq gəl bizə.

* * *

Yanağı çiçək,
Gözləri göyçək,
Üzəngidən tut,
Sən məni görcək.

Nəqarət

Bircə sözüm var,
Nazlı-duzlu yar.
Qəmli dayanma,
Şən gül üzlü yar.
Çıx yaşıl düzə,
Qonaq gəl bizə.
Gözüm yoldadır,
Xoş xəyaldadır.

Nəqarət

ANA

Əziz ana, can ana,
Gözəl, mehriban ana!
Böyütdükcə bizi sən
Dən düşür saçlarına
Omrün bənzər
Gülüstana,
Canım ana,
Gözüm ana!
Halal südün təmizdir,
Müqəddəsdir diləyin.
Qəlbimizlə bir vurur
Sənin ana ürəyin.
Ömrün bənzər
Gülüstana.
Canım ana,
Gözüm ana!
Qəhrəmanlar anası,
Sevimli, əziz qadın!
Bizim ana Vətənlə,
Qoşa çəkilir adın.
Ömrün bənzər
Gülüstana.
Canım ana,
Gözüm ana!

MİNGƏÇEVİR DƏNİZİNDƏ

Sular aydın, göy ləkəsiz,
Şəhər saldıq bu yerdə biz.
Qoy birləşsin ürəyimiz
Mingəçevir dənizində.

Gəzdirdikcə bizi yelkən,
Ulduzların altında mən.
Kaş öpəydim tellərindən,
Mingəçevir dənizində.

Muğan girib al qumaşa,
Tamaşadır başdan-başa.
Yelkən açıb, gəzək qoşa,
Mingəçevir dənizində.

ZƏRİF GÜLÜŞLÜM

Söylə, ey sevgilim,
Sən tək yar hanı?
Zülfündən tel düzüb
Çaldım kamanı.

Nəqarət

Ülkər baxışına,
Xoş yerişinə,
Zərif gülüşünə
Verrəm dünyanı.

Nəğmədir ilhamın,
Yoxdur bir kamın.
Ey şair İslamın
Gözəl cananı.

Mahnıdır yelkənim
Əzəldən mənim.
Gəl sevək vətənim
Azərbaycanı.

Nəqarət

LAYLAY

Göydə bulud lal keçər,
Axar sular dayanar.
Oxuma, şeyda bülbül,
Ceyran qızım oyanar.
Laylay, beşiyim laylay,
Evim, eşiyim laylay.
Qayalarda sürünür,
Yenə səhər dumanı,
Şirin yuxu yat, qızım,
Olum gözün qurbanı.
Laylay, beşiyim laylay.
Evim, eşiyim laylay.

KÖNÜL MAHNISI

Təzə eşqə düşən könlüm,
Mizrab götür, teli dindir.
Çəmənə çıx, seyrana gəl,
Bülbül olub gülü dindir.

Mən nazlıyam, sən naz çəkən.
Naz yaraşar nazlı yara.
Əsən külək, şana götür,
Tellərimi özün dara.

TƏRANƏ

duet

Oğlan: Sönməz gözünün atəşi bu mavi Xəzərdə,
Nöqsan da tapılmaz, aman allah, bu gözəldə.

Qız: Yadlar da olubdur sənə heyran, mənə heyran
Kim ki, bizi sevmir sənə qurban, mənə qurban.

Oğlan: Sən göydə yanan ülkərim, ey yerdəki canan,
İllərlə sevən yarına qıymaz belə hicran.

Qız: Hicran-vüsalın ləzzəti vardır gözəl oğlan,
Eşqində oduna od tuturam, mən Gözəl oğlan.

Oğlan: Bir-bir həzin illər də keçir, köç bizə ay qız,
Eyvanda durub gözləyirəm mən səni yalqız.

Oğlan və qız: Saf eşqimizi gəl yaşadaq güllü baharda,
Odlar diyarı, gül diyarı, doğma diyarda.

BİR OLANDA

Süzüldükcə ayna bulaq,
Şehdən sırğa taxar yarpaq.
Büsat qurar hər bağça-bağ
Bülbüllə gül bir olanda.

Əl-ələ tut, qol-qola gəz,
Təmiz eşqə yoxdur əvəz.
Əğyar yaxın düşə bilməz
Həm sirr, həm dil bir olanda.

Ürək coşar, qan qaynayar
Bir sözündən sənin a yar.
Günəş çalar, ay oynayar,
İki könül bir olanda.

AYNUR

Nəğmə

Körpə qızım Aynurum,
Saçların burum-burum.
Al-əlvan geyinmisən,
Kuklanla deyinmisən.

Sən nə qəşəngsən, Aynur,
Solmaz çiçəksən Aynur.

Sən yuxudan durmusan,
Evdə büsat qurmusan.
Oyna, ay bəxt ulduzum,
Göyçək qızım, can qızım.
Sən nə qəşəngsən, Aynur,
Solmaz çiçəksən Aynur.

Paltarın təp-təzədir,
Hər işin bir məzədir.
Böyü, qızım, boy at sən,
Təbiəti oyat sən...
Sən nə qəşəngsən, Aynur,
Solmaz çiçəksən Aynur.

DƏNİZ

Günəş qızıl balıq tək
Dənizdə batdı getdi.
Gümüş səyyarələri
Göydə oyatdı getdi.

Göy-göyərçin ləpələr
Qatar-qatar düzüldü,
Günəşin baxışları
Üfüqlərdən süzüldü.

* * *

Aypara oraq kimi
Buludlardan asıldı.
Dəniz şəhi sırğa tək,
Göy otlardan asıldı.

Ləpələrin dodağı
Dodağıma dəyincə,
Bir xoş nəğmə eşitdim
Bu vaxt incədən-incə.
– Avarı çək ey, aybəniz,
Qağayıdır yelkənimiz.
Qorxuram ki, bir gün mənsiz,
Bu göy gözlü ləpə, ay qız,
Gül üzündən öpə, ay qız.

DAĞLAR

Ona qanad verən öz xəyalıydı,
Məskəni dağların yaşıl yalıydı.
O, şərin ağsaçlı bir qartalıydı,
Zirvəndə doyunca süzmədi, dağlar!

Sevirdi yurdunu Vurğun dərindən,
Onu əcəl aldı elin əlindən.
Heyf ki, şərinin lalələrindən
Mina gərdəninə düzmədi, dağlar!

Sevdi Mil düzünü, sevdi Muğanı,
Sevdi qara gözlü gözəl ceyranı.
Gəzdi qarış-qarış Azərbaycanı,
Lakin bir çoxları gəzmədi, dağlar!

Vurğun ellər dedi, elləri seçdi,
Mahir ovçu kimi çölləri keçdi.
Çoban səmicindən dələmə içdi,
Fəqət dodağını büzmədi, dağlar!

Mağarda saz tutan tellər vurğunu,
Bülbülü mat qoyan güllər vurğunu.
Səməd Vurğun kimi ellər vurğunu
Min il yaşayaydı, yüz nədi dağlar!

HƏYATIMSAN

Sənsən ilk baharım mənim,
Sevimli gülzarım mənim.
Həyatımız şən, eşqimiz gülşən,
Ey sevgilim, sən ətirli gülsən.

Sən həyatımsan,
Qol-qanadımsan.
Sən gözəlimsən,
Saf əməlimsən.
Gəl seyrə dalaq,
Ey lalə yanaq!

Gözəl, parlaq, saf incisən,
Qəlbimin ilk sevincisən.
Baxışın odlu, yanağın güldür,
Yar, yaxın gəl, bir könlümü güldür.

Sən həyatımsan,
Qol-qanadımsan.
Sən gözəlimsən,
Saf gözəlimsən.
Gəl seyrə dalaq,
Ey lalə yanaq.

NİYYƏTİN NƏDİR?

Mən səni eşqimə yeganə sandım,
Dolandım başına pərvanə kimi.
Bahar qaranquşu, tər bənövşə tək
Sənə bəxş elədim mən öz qəlbimi.

Nəqarət

Çıxdım dan yerinin tərlan seyrinə
Sənə nərgiz dərdim, tər lalə dərdim.
Bilsəydim, gəldiyin dağ yollarına

Əlvan çiçəklərdən xalı sərərdim.
İnsaf elə, sevgilim, gəl,
Dinlə bir, ey gözəl,
Sənə sözüm var,
Ey nazlı nigar!
Sənsiz könül mülkü bir əfsanədir,
Aç söylə, bəs sənin niyyətin nədir?

Sənsən, ey gözəlim, söhbətim, sözüm,
Gəl yaşat eşqimi ürəyində sən,
Hayana getsən də ey xumar gözlüm,
Bu odlu aşiqin ürəyindəsən.

SEVƏRLƏR SƏNİ

Müğənni ən incə teli gözləyər,
Nəğmə gözəllikdir – ona göz dəyər.
Bir bülbül şərqisi eşitsəm əgər,
O səs ceyran kimi hürküdər məni.

Həyatım sevincdi, dalğın kədərdi,
Qaranquş nəfəsim uçub gedərdi.
Deməyin Şövkətin səsi hədərdi,
Bir daha tapammaz bu ellər məni.

Mən qoca Şərqimin müğənnisiyəm,
Şəlalə səsiyəm, bulaq səsiyəm,
Arazın axarlı zümzüməsiyəm,
Hər iki sahildə sevərlər məni.

Təranəm gəzsə də bütün cahanı,
Deyin, torpağımtək bir məkan hanı?
Bir gün mən görməsəm Azərbaycanı,
Boğar varlığımda qəm, kədər məni.

QIZLAR

Qara qaşlı, qara gözlü qızların,
Nəğməsinə xoş nəğmələr qarışdı.
Göy ətəkli, bol məhsullu düzlərin,
Sinəsində neçə ürək alışdı.

Qapıb sübhün zərif duman tülünü,
Səhər mehi dağ döşündə itirdi.
Göy kolların qozasını, gülünü,
Bizim qızlar nəfəsilə yetirdi.

Açdı, saçaq-saçaq oldu qozalar,
Göy kolların gümüş teli parladı.
Deyirlər ki, payız fəsli boz olar,
Şimşək çaxdı, göy üç dəfə gurladı.

...Göyə baxdı bu qızların qəşəngi,
Onun şəhla gözlərinin bu odu, –
Xəncər kimi parçaladı buludu,
Güldü günəş, – güldü göylər çələngi.

Al şəfəqlər içdi büllur şehləri,
Yenə kollar ağ örpəyə büründü.
Yaraşıqlı doğma vətən çölləri
İndi daha məlahətli göründü.

Şərqin şöhrəti

QƏLB ŞAİRİ

Fizuliyə ithaf

1

Yarıb daş sinəli qərinələri,
Şerinlə ucaltdın özünə heykəl.
Keçdikcə ömrünün qaynar illəri,
Dünyaya bəxş etdin min incə qəzəl.
Qəlbinin hər teli kamana döndü,
Ahın ağ örpəkli dumana döndü.
Tutuşdun yanar bir eşq atəşinə,
Səməndər sayağı alışdı qəlbin.
Leylinin – Məcnunun təmiz eşqinə
Bir dastan yaratdı o şair təbin...
Bu sevda yolunun yorğunuyam mən,
Füzuli şerinin vurğunuyam mən!..

2

Gözəllər olduqca Məkkən-Mədinən,
Məhəbbət dil açdı hər sətirində.
Cananın zülfünü oxşadıqca sən,
Elə bil məst oldun gülün ətrində.
Qəlbindən bulaqlar axıb süzüldü,
Mirvari sözlərin çin-çin düzüldü.
Dilbər səhərlərin seyrinə daldın,
Ötdü sarı köynək şehli budaqda.
Meylini bir yeni qəzələ saldın,
O da nəğmə olub gəzdi dodaqda.
Səni arzuladı Odlar vətəni,
Lakin Şərq qəlbində gəzdirdi səni.

3

Sən qoca Bağdadın halına yandın,
Orda nəşədən çox dərd, bəla gördün,
Ədalət naminə ellər dolandın,
Xorasan addadın, Kərbəla gördün.
Nur olub süzüldün, su olub axdın,
Lakin oyanmadı o qara baxtın.
Sarbanı olduqca söz karvanının,
Yükün kədər oldu, yükün qəm oldu,
Şair! Öz dövrünün, öz dövranının
Niyə hər naləsi səndə cəm oldu?
Dünyanın sənin tək dərdlisi varmı,
Bir qəlbə bir elin dərdi sığarmı?..

4

Keçdin fırtınalı qərinələrdən,
Füzuli, oyatdı xəlqı əfqanın.
Yaşatdın, hifz etdin qüdrətinlə sən
Öz doğma dilini Azərbaycanın.
Deyirlər anan da ellər adından
Demiş: o ləhcənə, dilinə qurban!
Dörd yüz il keçsə də, şair, yaxşı bax,
Yenə də dilimin keşiyindəsən.
Demə ki, unudub məni bu torpaq,
Sən doğma elimin beşiyindəsən.
Sənə layla deyir göy ulduzları,
Bir də yurdumuzun ceyran qızları.

5

Füzuli! Güldükcə hər yeni səhər,
Min gözəl yetişir gözəlin kimi,
Elin yaratdığı təzə nəğmələr
Dillərdə dolaşır qəzəlin kimi.
Sən günlə çıxırsan, ayla batırsan,
Xalqınla bir durub, birgə yatırsan.
Hər il novruzgülü çıxanda qardan.
Sən də qədəm basıb bizə gəlirsən.

Güldəstə bağlayıb bu ilk bahardan,
Çəmənə çıxırsan, düzə gəlirsən.
Yetər, ay Füzuli, şəbi-hicranın,
Sən qəlb şairisən Azərbaycanın!..

ŞƏRQİN ŞÖHRƏTİ

Böyük ədib
Cəlil Məmmədquluzadəyə

I

Mirzə Cəlil! Mirzə Cəlil!
Doğuldunsa Nehrəmdə sən.
Yüz Nehrəmin dərdi keçdi
Vətəncanlı ürəyindən.

* * *

Baxdın Həsən əmilərə,
Min bir əmin düşdü yada.
Tutuşdun bir qəm oduna,
Min bir qəmin düşdü yada.

* * *

O suvaqlı daxmalarda
Duydun elin ahını sən.
Əllərinə qələm verib,
– Dərdimi yaz! – dedi Vətən.

* * *

Durdun iti qələminlə
Millətinin keşiyində.
Sabirlərin, Səhhətlərin
Səhhətinin keşiyində...